# Din nəsihətdir

Təmim Əd-Dəridən (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Din nəsihətdir". Biz dedik: Kimə? Peyğəmərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun): "Allaha, kitabına, rəsuluna, müsəlmanların rəhbərlərinə və bütün müsəmanlara" - deyə buyurdu.
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, din ixlas və doğruluq üzərində qurulmuşdur, Allahın vacib buyurduğu kimi tam, nöqsansız və yalan olmadan yerinə yetirilməlidir. Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) soruşdular: Nəsihət kimin üçün olmalıdır? Belə cavab verdi: Birincisi: Uca və pak olan Allah üçün olan nəsihət. Bu, əməllərdə ixlaslı olmaq, Ona şərik qoşmamaq, Onun aləmlərin Rəbbi olmasına (rububiyyətinə) iman gətirmək, bütün ibadətlərin yalnız Ona məxsus olmasına və sərf edilməsinə (uluhiyyətinə) iman etmək, ad və sifətlərinə iman etmək, Onun şənini ucaltmaq və Ona iman etməyə çağırmaqla olur. İkincisi: Allahın Kitabına - Qurani Kərimə olan nəsihət: Quranın Allahın kəlamı oluğuna, onun kitabların sonuncusu olduğuna, özündən öncəki bütün şəriətlərin hökümünü qaldırdığını etiqad edirik, onu təzim edirik. Onu layiqincə oxuyub, muhkəm (aydın olan) ayələrinə əməl edib, mütəşabih ayələrə təslim oluruq, onun ayələrini təhrif edənlərin təvillərini (öz ağıllarının məhsuluna uyğun yozmalarını) dəf edib, Quranın öyüdlərindən ibrət alıb, Quran elminin təbliği ilə ona dəvət edirik. Üçüncüsü: Allahın Rəsulu Muhəmməd (Allahın salavatı və salamı onun üzərinə olsun) üçün olan nəsihət: Onun elçilərin sonuncusu olduğuna etiqad edib, dediklərini təsdiq edirik, əmrlərinə tabe olub, qadağalarından çəkinirik, yalnız ona nazil olan şəriətlə Allaha ibadət edirik, onun haqqını uca tutub, ona hörmət edirik, dəvətini yayırıq, şəriətini insanlara çatdırırıq, ona qarşı edilən ittihamları rədd edirik. Dördüncüsü: Müsəlmanların rəhbərlərinə nəsihət: Haqq üzərə olmalarına yardım edir, idarəetmə işlərində mübahisə edib işlərinə qarışmırıq, Allaha itaət çərçivəsində onlara eşidib itaət edirik. Beşincisi: Müsəlmanlara nəsihət: Onlara xeyirxahlıq edib, haqqa dəvət edirik, onlara əziyyət verməkdən çəkinirik, onlar üçün xeyir istəyib, ṯəqva və yaxşılıq üzərində onlarla yardımlaşırıq.

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee